*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2025, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 91-96* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2025.1.91*

# Çağdaş Azərbaycan hekayəçiliyində zaman və məkan süjet yaradıcı element kimi

**Cavid Zeynalov**
Azərbaycan Dillər Universiteti
E-mail: cavid54@mail.ru

**Annotasiya.** Çağdaş Azərbaycan ədəbiyyatındakı hekayələrdə zaman və məkan çoxqatlı xüsusiyyətlərə malikdir. Burada zaman və məkan sadəcə süjetin fonu deyil, həm də tematik və simvolik anlamlar daşıyan, qəhrəmanın daxili dünyası ilə dialoqa girən poetik elementlərdəndir. Postmodern üslub və fərdi yanaşmanın üstünlük təşkil etdiyi bu hekayələrdə qeyri-xronoloji zaman, geriyə dönüş (flashback), dairəvi zaman, yaxud dayanmış zaman kimi texnikalar daha çox ön plana çıxmaqdadır. Eləcə də qəhrəmanın emosional vəziyyətindən asılı olaraq zaman bəzən sürətlənir, bəzən dayanır. Məkan isə çağdaş hekayələrdə bəzən real, bəzən isə metaforik məna daşıyır. Bundan başqa, qəhrəmanın daxili sıxıntılarını simvolizə edən kiçik, qapalı, sıxıcı məkanların təsvirinə tez-tez rast gəlinir. Zaman və məkanın vəhdəti isə bu hekayələrdəki dramatik təsiri daha da artırır.
**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, müstəqillik dövrü, bədii zaman, məkan, hekayə, xronotop

**Məqalə tarixçəsi:** göndərilib – 05.02.2025; qəbul edilib – 20.02.2025

# Time and space as plot-creating elements in contemporary Azerbaijani storytelling

**Javid Zeynalov**
Azerbaijan University of Languages
E-mail: cavid54@mail.ru

**Abstract.** Time and space have multi-layered properties in stories in contemporary Azerbaijani literature. Here, time and space are not just the background of the plot, but also poetic elements that carry thematic and symbolic meanings and enter into a dialogue with the inner world of the hero. In these stories, where the postmodern style and individual approach prevail, techniques such as non-chronological time, flashback, circular time or frozen time are more prominent. Also, depending on the emotional state of the hero, time sometimes accelerates and sometimes stops. Space in contemporary stories sometimes has a real and sometimes a metaphorical meaning. In addition, the description of small, closed, oppressive spaces symbolizing the hero's inner distress is often encountered. The unity of time and space further enhances the dramatic effect in these stories.
**Keywords:** Azerbaijani literature, period of independence, artistic time, space, story, chronotope

**Article history:** received – 05.02.2025; accepted − 20.02.2025

## Giriş / *Introduction*

Ədəbiyyatda istər həcmi, istər mövzu rəngarəngliyi baxımından ən sevilən janrlardan biri olan hekayədə zaman və məkan probleminin araşdırılması mühüm əhəmiyyət daşıyır. Məlumdur ki, hekayəçilik ədəbiyyat tarixində ayrı bir janr kimi təşəkkül tapmağa başlayandan bəri onun digər prozaik növlərdən ayıran xüsusiyyətlər haqqında çox yazılıb, çox analizlər aparılıb. Hətta bu barədə ayrıca kitab yazan H.E.Beyts yazır ki, bir atın ölümündən gənc bir qızın sevgisinə, təsadüfi bir təsvirdən, hadisələrdən hörülmüş bir narrativə, hətta bir şeirdən bir reportaja qədər hər şey hekayə ola bilər; bu elastik xarakterinə görə hekayənin sərhədlərini müəyyənləşdirmək qeyri-mümkündür [4, s.7]. Milli ədəbiyyatımızda da hekayə janrında özünəməxsus, yeni tipli mövzular hər dövrdə öz əksini tapmışdır.

## Əsas hissə / *Main part*

Postmodernizmin təsirində olan çağdaş ədəbiyyatımızda qələmə alınan hekayələr öz spesifikliyi ilə seçilir. Əjdər Ol özünəməxsus üslubu ilə seçilən çağdaş nasirlərimizdəndir. Onun xüsusilə, real insanlarla ünsiyyətindən, onları müşahidə etməyindən yaranan portret hekayələri ədəbi mühitdə maraqla qarşılanmışdır.

Bədii yaradıcılığa şeirlə başlayan, sonralar da poeziya kitabları nəşr etdirən Əjdər Ol, ədəbi mühitdə daha çox prozaik hekayələri ilə məşhurlaşdı. Əjdər Olun yaradıcılıq yolunun müstəqillik dövründəki nəşrlərinə proza ilə bağlı hissəsinə nəzər salaq: "Ölümlə zarafat" (Hekayələr, 2007), "Qrafoman" (Hekayə, 2009), "Əjdər Olam" (2009), "Portret hekayələr" (2010), "Yaşa" (2010), "Tütün limanı" (Hekayələr, 2012), "Canlı lətifələr, əhvalatlar, deyimlər" (2015), "Qəzənfər müəllimgilin Şuşaya yürüşü" (Hekayələr, 2017), "Lo" (Canlı roman, 2019). Tehran Əlişanoğlu yazıçının yaradıcılığı haqda qeyd edir: "Milli insanın xarakteri, mental dəyərlər, milli həyatın mənzərələri yazıçını hər şeydən çox məşğul edir və realist qələmin ədəbiyyatımızda topladığı təcrübədən məharətlə bəhrələnib, onu yeniləyir, günün xidmətinə yönəldə bilir. "Börüsoy", "Usta Yusifin kamançası", "Şər Nizi", "Hərbi səhra komandirinin meymunu", "Qəzənfər müəllimin Şuşaya yürüşü" və bir çox başqa hekayələri tamamən bu ruhdadır, milli xarakterin dərinliyinə enməklə əsrlər uzunu dəyişən və dəyişməyən toplum həqiqətlərini yeni situasiyalarda kəşf edir" [6].

Əjdər Ol bütün hekayələrində realist manerada çıxış edir. Onun bütün hekayələrində məkan da, zaman da, insanlar da gerçəkliklə autentikdir; bu mətnlərdəkilər bizə çox doğma yerlər, tanış zaman anları, həyatdan və ədəbiyyatdan tanıdığımız insanlardır. Əjdər Olun "Qəzənfər müəllimgilin Şuşaya yürüşü", "Hərbi səhra komandirinin meymunu" kimi hekayələrində məkanlar liminial zonalar, aralıq məkanlardır. Belə ki, bu hekayələrdə məkan kimi seçilən yerlər üz tutulan, adı hekayənin sərlövhəsində və içində keçən konkret ünvanlar deyil, ora canatım məkanlarıdır. Məsələn, Qəzənfər müəllimgilin Şuşaya yürüşü" hekayəsində hadisələr Qarabağ sərhədində baş verir, üz tutulan məkan Şuşa olsa da, məkanın və zamanın kəsişdiyi yer, xronotop kimi təyin edilən zona aralıq yeri, sərhəd vəziyyətindədir.

Əjdər Olun hekayələrini tragik-komik hekayələr adlandırmaq olar. Bu hekayələrdə bir yandan gerçək həyatda prototipi olan insanların həyatından qəmli, faciəvi, duyğulu məqamlar bizə təqdim olunur, digər tərəfdən isə bütün hekayələrdən qırmızı xətt kimi keçən müəyyən ironik ton da qabarıqdır. Xüsusilə mərhum yazıçı Rafiq Tağı haqqında yazdığı "Rafiq Tağı ki, Rafiq Tağı..." və tanınmış şair Əlisəmid Kür haqqında yazdığı "Kür Əlisəmid" və mərhum fantast yazıçı Namiq Abdullayev haqqında yazdığı "Namiq Abdullayevin axırı" hekayələrində tragik və ironik olanın vəhdəti daha parlaq şəkildə öz ifadəsini tapıb.

Xalq yazıçısı Kamal Abdulla ilk hekayələrindən etibarən fərqli mənalara və şərhə açıq olan, çoxyozumlu mətnlər qələmə almışdır. Təsadüfi deyil ki, müəllifin təkcə bədii yaradıcılığında deyil,

elmi-akademik fəaliyyətində də açar sözlərdən biri “sirr”dir. Belə ki, Kamal Abdullanın mətnləri oxucunu daim bir sirrin axtarışını, bir tapmacanı çözməyə çağırır, bədii mətni təkcə müəllif diqtəsinin, yazıçı ehkamlarının cəmi kimi yox, oxucu ilə birgə nəticə çıxarılan interaktiv macəra, intellektual sərgüzəşt şəklində təzahür edir. Ancaq burada məqsəd xəfiyyəlik, detektivlik tonu vasitəsilə hadisənin zaman və məkandakı ekzistensial, üzdə görünməyən, dərinlərdə sayrışan məntiqinə doğru addımdır. Məsələn, yazıçının “Edam vaxtını dəyişmək olmaz” hekayəsi bu baxımdan səciyyəvidir. Hekayənin adında zaman faktoruna xüsusi işarə var, belə ki, artıq əvvəlcədən müəyyənləşmiş, geri dönüşü olmayan hökmün icra olunacağı vaxt, zaman var və sözügedən həyatın gündəlik axarı həmin qırılma anına doğru axır.

“ - Buna bax, hələ gülür bu. Azdı sənə ölüm. Səni şaqqalamaq lazımdır…

- Edam vaxtına yeddi saat, altı yüz əlli bir dəqiqə qaldı” [1].

Burada məqsəd hekayədə qətlə yetirilən Şükufənin qatilini tapmaq deyil. Yazıçı insan mövcudluğu ilə bağlı qəliz, mürəkkəb psixoloji vəziyyət, sərhəd situasiyası yaratmaqla onun – insanın üzdə olmayan qatlarını açmaq, sirli təbiətindən bir parçanı üzə çıxarmağa çalışır. Məhz buna görə də hekayənin fokusunda qətl hadisəsi yoxdur, bu hissə oxucunun fantaziyasının sonsuzluğuna etibar edilib. Müəllif hekayədəki vəziyyəti, edam aktına doğru axan zamanla bağlı oxucunu düşünməyə dəvət edir.

Eləcə də Kamal Abdullanın son illərdə yazdığı “Vakxanaliya mövsümündə çalıquşu”, “Kölgə” və s. hekayələr silsiləsi ilə eyni adda olan “Səhvlərimizin qrammatikası” hekayələri də oxucuya təsvir olunan vəziyyətdən çıxış yolu tapmaqda “həmmüəlliflik” təklif edir. Yazıçı “Səhvlərimizin qrammatikası” adını həm hekayəsinin, həm də silsilənin adı kimi təqdim etməklə bu addakı vurğuya fokuslanmağa işarə vurur. Bu addakı “qrammatika” sözü istər sosial-ictimai həyatımızdakı, istər humanitar fikrimizdəki problemləri nişan verir, “düşüncə”, “idrak”, “yanaşma” kimi anlayışların bədii-metaforik sinonimi qismində çıxış edir.

Natiq Rəsulzadənin hekayələri də müstəqillik dövrü ədəbiyyatımızda özünəməxsus yer tutur. “Natiqin qəhrəmanları tez-tez onun bədii təxəyyülünün gücü ilə ekstremal vəziyyətlərə düşürlər və bu zaman onun və yaxınlarının bu və ya digər obrazının hansı xarakter nümayiş etdirəcəyindən asılı olur” [3]. Natiq Rəsulzadənin “Dəhşət Məştağalının həyatı və ölümü” hekayəsinin Dəhşət adlı qəhrəmanı hər gün qəribə yuxu görür. Bu yuxunun kölgəsi ayıq həyatında onu qarabaqara izləyir, həyatını alt-üst edir, onu gözlənilməz hadisələr burulğanının içinə atır. “Kölgə” arxetipi üstündə qurulan mətndə alternativ məkan kimi yuxuda baş verənlərin, real həyata təsiri paralel şəkildə işlənib. Hekayənin sonunda personaj yuxudakı kimi hündür binadan yıxılıb həlak olur. Müəllif hekayə boyu oxucuya sezdirir ki, ayıqlıq kabusun təsirindən xilas olmağın yeganə yoludur. Gərək yuxular dünyasının alternativlərini real həyata daşımayasan, əgər daşısan Dəhşət ailəsinin başına gələnlərə tuş olacaqsan.

Yaradıcılığına sovet dövründə başlamış usta yazıçı Vaqif Nəsib müstəqillik dövründə özünəməxsus hekayə-triptix çap etdirdi: “Üç adamın qonur günü”, “Üç adamın qırmızı günü”, “Üç adamın sarı günü”. Müəllif bu hekayə silsiləsini Xalq şairi Rəsul Rzanın “Rənglər” silsiləsindən təsirlənərək yazdığını deyir və əlavə edir ki, rastlaşdığım insan mənzərələrini rənglərə köçürməyə, insan taleləri ilə rənglər arasında bağ qurmağa çalışdım. Vaqif Nəsibin hekayələrində indiki zamanın içində keçmişə və gələcəyə doğru genişlənən, haçalanan zaman var.

Müstəqillik illərində Azərbaycan hekayəçiliyində qadın müəlliflərin də aktivliyi diqqət çəkir. Qadın dünyasını, qadın tənhalığını, sevgini və ayrılığı özünəməxsus yeni ifadə vasitələri, yeni çağın bədii-metaforik dili ilə ifadə edən qadın müəlliflərdən Aytən Cavanşirin “Ayaqlarım üşüyürdü”, Günel Eyvazlının “Cadugər”, Sevinc Çılğının “Yumurta” hekayələri xüsusilə diqqəti cəlb edir. Şübhəsiz ki, bu müəlliflərin hər birinin hekayələrində sadalanan mövzularla yanaşı, mentalitet xofu, cəmiyyət təzyiqi, gender məsələləri də ön plana çıxır. Bu mənada qadın müəlliflərin yazdığı hekayələrin daxili dinamikası təkcə psixoloji yox, eyni zamanda sosialdır.

Sevinc Çılğının hekayələrindəki personajlar qadın-kişi diskriminasiyasının qurbanıdırlar, əksəriyyəti məhz buna görə travmatikdir, qadın olduqları üçün əziliblər. “Yumurta” adlı hekayəsində müəllif açıq, birbaşa üslubla təbiətin nizamını pozan insanın sonda həmin aqibətə düçar olacağını deyir. Hekayənin personajı Əhməd hər səhər hindən yumurtaları götürüb çiy-çiy içir, ərinin dalınca hinə baş çəkən arvadına həmişə elə gəlir ki, xoruz ona qəmli-qəmli baxır. Sonda eyni aqibət onların da başına gəlir, təbiətin nizamı pozulduğu üçün karma mexanizmi işə düşür. Müəllif demək istəyir ki, həyatda hər şey səbəb-nəticə əlaqələrinə tabedir.

Gender məsələlərinə müraciət təkcə qadın müəlliflərin yox, kişilərin yaradıcılığında da özünü göstərir. Bu müəlliflərin içində elmi əsərləri ilə yanaşı, bədii mətnlər də yazan Rəhim Əliyev xüsusi diqqət çəkir. Müəllifin 2014-cü ildə çap olunmuş “Zülmətdə çəhrayı” kitabının maraqlı daxili strukturu var, belə ki, kitabda personajları qadınlar olan hekayələr “Çəhrayı” adı altında, kişilərdən ibarət olan hissə isə “Zülmət” sərlövhəsi altında toplanıb. Rəhim Əliyevin “çəhrayı” qadınlarının hamısı kişilərin “zülmət”ində boğulan, öz ideallarından üz döndərən, arzularını cəmiyyətin ona biçdiyi rola görə geri çəkməli olan insanlardır. “... bu hekayələrdə müəllifin dərin rəğbəti bu çətin, əxlaqi kanonlara sığmayan talelər yaşamağa məcbur olan bu qadınların tərəfindədir...” [5]

Sözügedən hekayələr silsiləsinə daxil olan mətnlərin içində “Sənəmin məktubu” adlı hekayə məşhur alman yazıçısı Stefan Sveyqin “Naməlum qadına məktublar” əsəri ilə intertekstual əlaqə üstündə qurulub. Belə ki, Rəhim Əliyevin hekayəsində Sənəm Sveyqin əsərinin adını birbaşa çəkməsə də, bir əcnəbi yazıçının illər əvvəl epistolyar formada yazılmış əsərini oxuduğunu yad edir: “Mən bir yazıçının hekayəsini oxumuşdum. Orada da bizim münasibətlərimizə oxşar bir şey yazılmışdı. Çoxdan fikirləşmişdim ki, həmin yazıdakı qız kimi olam. Amma bu asan deyil. Bilmək və istəmək bir şeydi, istəyi həyata keçirmək başqa. Mən bu barədə səninlə görüşdən on beş il əvvəl oxumuşdum. Yadımdan da çıxmışdı” [7].

Sveyqin qadını sevginin, Rəhim Əliyevin Sənəmi isə ehtirasın təkanı ilə hərəkət edir. Bu hekayələrdəki qadınların sovet dövrü ədəbiyyatındakı qadınlardan əsas fərqi onların standart, qəlib fədakar obrazda yox, səhvlər edən, sevdiyi üçün təkliyi, cəmiyyətin qınağını belə qəbul edən, məğlub olsa da, cəhd edən qadınlar olmasıdır.

Xalq yazıçısı Anarın 1990-cu ildə yazmağa başladığı, müstəqilliyin ilk illərində davam etdirdiyi, eyniadlı povest (“Otel otağı”) və hekayələrdən ibarət kitabı 1995-ci ildə çapdan çıxdı. Anarın bütün yaradıcılığında ilk baxışdan görünən zaman motivi bu hekayələrdə ən müxtəlif çalarlarda işlənmişdir. Məsələn, “Qırmızı limuzin” adlı hekayə bir tərəfdən realist planda görünsə də, mətnin içində metaforik-simvolik müstəvi də qabarıqdır. Müəllif keçmiş sovet dönəmini qırmızı limuzinlə simvollaşdırıb, üstəgəl, dövrü, zamanı konkretləşdirmək üçün həmin maşının nömrəsini “19-91” şəklində yazıb: “Yaylı qapılardan keçib küçəyə addımını basan kimi səkinin qırağında qırmızı limuzini gördü və bu səfər heç təəccüblənmədi də. Sanki onu yenidən görəcəyinə heç bir şəkk-şübhəsi yoxdu. Bu dəfə adamsız, boş maşının nömrəsinə diqqət elədi: 19-91” [2, s. 192].

Anarın ekzistensial motivli hekayələri içində “Vahimə” diqqəti çəkir. Hekayənin qəhrəmanı Oruc həkim mənəvi travmaları olan, narahat insandır. Ancaq niyəsə özünü inandırır ki, dünyada hər şey tarazlıqdadır, heç bir problem yoxdur. Oruc həkim psixiatrdır, özünü dünyadakı hadisələrdən təcrid edib komfort zonası yaratmaq istəsə də, yanına gələn xəstələrin danışdıqları ilə o da dünya ilə təmasa keçir. Yanına gələnlərin əksəriyyəti müharibənin ağrısını, travmasını canında daşıyanlardır.

Eləcə də Yazıçı Rafiq Tağının 1990-cı illərdə bir-birinin ardınca çap etdirdiyi “Düşmənimin düşməni” (1991) və “Pozitiv...neqativ” (1996) kitabları dəyişən dünyadakı vəziyyətlər və insan halları haqqında toplulardır. Rafiq Tağı üslubunun əsas xarakterik cəhəti ironiyadır, rişxənddir. Demək olar ki, bütün hekayələrində Şərq insanının mentalitetindəki çatışmazlıqları, milli qüsurlarımızı özünəməxsus şəkildə tənqid edir. Rafiq Tağının hekayələrindəki qəhrəmanlar köhnə, dağılmış ictimai-siyasi formasiyadan yeni dönəmə adlamış insanlardan bəhs edir.

Rafiq Tağının "Qoca Məcnun" hekayəsinin qəhrəmanı Musiqili Opera Teatrında uzun illər Məcnun rolunu ifa etmiş bir aktyordur. Bu qəhrəmanı daim keçmişi xatırlayır, məcnunluq artıq keçmişdə qalıb, ancaq o, bu keçmişdən ayrıla bilmir. Müəllif amansız ironiya ilə keçmişin xiffətini çəkməyi, ayağının altındakı yeri, içində yaşadığı indiki zamanı hiss etməməyi, xəyal ilə gerçəklik arasında var-gəl edən Şərq insanını tənqid edir.

### Nəticə / *Conclusion*

XXI əsr Azərbaycan hekayəçiliyi dünya ilə inteqrasiyada olan, qloballaşmanın gətirdiyi yenilikləri öz mədəni mühitinə adaptasiya etməyə çalışan yazıçıların yaradıcılığında qabarıq şəkildə görünən eksperimental, avanqard, modernist meyillər ilə seçilir. Çağdaş dövr Azərbaycan hekayələrində bədii zaman və məkan həm realist, həm də simvolik çalarlarla zəngindir. Bu hekayələrdə xronologiyanın pozulduğu, geriyə dönüşlər və dairəvi zamanla zəngin zamana və bəzən gerçək, bəzən metaforik xüusiyyətlərə malik məkana rast gəlinir.

### Ədəbiyyat / *References*


1. Abdulla K. Hekayələr. – Bakı: Mütərcim, 2009, 56 s.
2. Anar. Seçilmiş əsərləri. – Bakı: Lider, 2004, 416 s.
3. Axundova E. Natiq Rəsulzadənin qırx illik axtarışları və tərəddüdləri. "525 qəzet", 2009, 23 may, s.20.
4. Bates H.E. Yazınsal Bir Tür Olarak Kısa Öykü. Çev. Gökçen Ezber. – İstanbul: Bilge Kültür Sanat, 2001, 176 s.
5. Əlişanoğlu T. Məqsəd Nurun revanşı // T.Əlişanoğlu, Müstəqillik körpüsünü keçənlər. – Bakı: Elm və təhsil, 2015, 415-424 s.
6. Əliyev R. Zülmətdə çəhrayı, hekayələr. – Bakı: Alatoran, 2014, s.297.
7. Narlı M. Romanda zaman ve mekân kavramları. Balıkesir Üniversitesi Sosyal Bilimler Dergisi, 2002. Cilt 5 (7): 91-106.
8. https://literature.az/?page=339&newsId=119306&lang=aze


## Время и пространство как сюжетообразующие элементы в современном азербайджанском повествовании

**Джавид Зейналов**
Азербайджанский Университет Языков
E-mail: cavid54@mail.ru

**Резюме.** Повествования в современной азербайджанской литературе характеризуются многослойным изображением времени и пространства. Здесь время и пространство выступают не просто как фон сюжета, но и как поэтические элементы, несущие тематическое и символическое значение, вступающие в диалог с внутренним миром героя. В этих историях, где доминирует постмодернистский стиль и индивидуальный подход, все более заметными становятся такие приемы, как нехронологическое время, флэшбэк, циклическое время или замороженное время. Точно так же время иногда ускоряется, а иногда останавливается в зависимости от эмоционального состояния героя. С другой стороны, в современных историях пространство порой приобретает реальное, а иногда и метафорическое значение. Кроме того,

часто встречаются изображения небольших, замкнутых и угнетающих пространств, символизирующих внутренние страдания главного героя. Единство времени и пространства еще больше усиливает драматический эффект этих историй.

**Ключевые слова:** азербайджанская литература, период независимости, художественное время, пространство, сюжет, хронотоп